**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm:___________(kafedra müdiri)
Tarix: 01 fevral 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Aqrar sahənin regional problemləri |
| | **Fakültə** | İqtisadiyyat |
| | **İxtisas** | İqtisadiyyat |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | IV |
| | **Semestr** | VII |
| | **Təlimçi** | Abbasova Mayisə Məmməd qızı, baş müəllim |
| | **e-mail** | abbasovaruziya@gmail.com |
| | **Telefon** | 050 434 97 90 |
| | **Dərs günləri və saatları** | I gün 2-ci s., II gün – 2 saat, IV gün 3-cü s., ,V gün 3-cü saat. |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | **Əsas ədəbiyyat**<br>1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>4. Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>5.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>6.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004. | |
| | Əlavə ədəbiyyat:<br>1. Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s<br>2..Ə.Ə Ələkbərov. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu. Bakı, 2005. | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Aqrar sahənin regional problemləri predmetini aqrar sahənin xalq təsərrüfatında tutduğu yer, kənd təsərrüfatı istehsalının xüsusiyyətləri, kənd təsərrüfatı emal sənayesi, yeyinti və yüngül sənayüsi müəssisələri arasındakı əlaqə, ölkənin xalq təsərrüfatı sistemində aqrar iqtisadiyyatın yeri, aqrar iqtisadiyyat və ərzaq təhlükəsizliyi, aqrar istehsal və ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz məhsul istehsalı, aqrar istehsalın səmərəliliyinin yüksəldilməsi yolları və s. məsələlər təşkil edir. | |
| **Fənnin məqsədləri** | Aqrar sahənin regional problemləri predmetinin məqsədi hər bir elm kimi kənd təsərrüfatı sahəsində çoxukladlı mülkiyyət formaları əsasında | |

<table>
<tr><td></td><td colspan="3">fəaliyyət göstərən müxtəlif istehsal qurumlarında təsərrüfatın təşkili, inkişafı və aparılması qanunauyğunluqları öyrənir. Onun məqsədi bazar iqtisadiyyatı şəraitində daxili resursların aşkara çıxarılıb səmərəli istifadə olunmasına minimum əmək və vəsait sərfilə maksimum məhsul çıxımına nail olunması yollarının öyrənilməsi başa düşülür..</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="3">Kursun sonunda tələbələr bilməlidir:<br><u>1.</u> Aqrar sahənin regional problemləri fənninin nəzəri metodologiyasını mənimsəyir.<br><u>2.</u> Aqrar sahə sferasında baş verən dəyişiklikləri dinamik olaraq təhlil edir.<br><u>3.</u> Tələbələrə aqrar sahənin iqtisadiyyatı və idarə edilməsi qaydalarını öyrədir.<br><u>4.</u> Tələbələr aqrar sahədə təsərrüfatçılığın iqtisadi mexanizminin formalaşması və spesifik xüsusiyyətlərini öyrənir</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td colspan="2"></td></tr>
<tr><td>Simulyasiya</td><td colspan="2"></td></tr>
<tr><td>Layihə</td><td colspan="2"></td></tr>
<tr><td>Digər</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="10">Qiymətləndirmə</td><td colspan="2">Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td colspan="2">Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td colspan="2">1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="3">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td colspan="2">2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="3">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” - A</td></tr>
<tr><td colspan="2">Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td>Qiymətl. metodları</td><td colspan="3">Yazılı imtahan</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.</td></tr>
</table>

<table>
<tr><td colspan="2"></td><td colspan="2">Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
<tr><th colspan="4">Tematik plan</th></tr>
<tr><th>Həftə</th><th>Tarix</th><th>Mövzular</th><th>Dərslik / Tapşırıq / Ədəbiyyat</th></tr>
<tr><td>1</td><td></td><td>Mövzu 1.<br>Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi fənninin məzmunu, predmeti, öyrənilmə metodu.<br>Qısa icmal:<br>Kənd təsərrüfatının iqtisadiyyatı elmi digər iqtisadi elmlər ilə bağlı olub onların nailiyyətlərindən bəhrələnir, zənginləşir və inkişaf edir.<br>Xalq təsərrüfatının mühüm sahəsi olan kənd təsərrüfatı həmçinin sənayenin xammala olan ehtiyaclarının ödənilməsində də böyük rol oynayır.<br>Kənd təsərrüfatının başqa bir xarakterik xüsusiyyəti ondan ibarətdir ki, maddi nemətlər istehsal edən müxtəlif mülkiyyətçilik formaları idarəetmə prinsipinə görə bir-birindən fərqlənir.</td><td>1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| **2** | | **Mövzu 2.**<br>**Aqrar iqtisadiyyat ölkənin xalq təsərrüfatı sistemində**<br>Qısa icmal:<br>Aqrar iqtisadiyyat dedeikdə kənd təsərrüfatı, müxtəlif kənd təsərrüfatı məhsulları istehsal edən, onu emal edən, tədarük və saxlama şəraitini qarşılıqlı surətdə əlaqələndirən təsərrüfat kompleksləri başa düşülür.<br>Təbii iqlim şəraiti baxımından kənd təsərrüfatının respublikamızda inkişafı üçün əlverişli şəraitin mövcud olması, nəticə etibarilə və uzunmüddətli zaman kəsiyində respublikamızın kənd təsərrüfatı istehsalı üzrə ixtisaslaşmasına gətirib çıxarmışdır.<br>Kənd təsərrüfatında xammal istehsalının azalması, nəticə etibarilə yüngül və yeyinti sənayesinin xammal bazasının aşağı düşməsi deməkdir.<br>Müasir şəraitdə aqrar sahədə struktur dəyişiklikləri ilk növbədə fiziki statusu ailə təsərrüfatının könüllülük birliyini nəzərdə tutur.<br>Kənd təsərrüfatında struktur dəyişikliklərin nəticəsi olaraq formalaşdırılmalı olan kooperativ sektor, əvvəllər mövcud olan kolxoz-kooperativ sistemindən köklü şəkildə fərqlənir.<br>. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Reg-ionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahə-nin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004. |
| **3** | | **Mövzu 3.**<br>**Aqrar istehsalda sahibkarlıq fəaliyyəti və müasir aqrar siyasətin elmi əsasları**.<br>Qısa icmal:<br>Sahibkarlıq fəaliyyəti dedikdə, mənfə-ət əldə etmək məqsədilə öz riski əsasın-da müstəqil, sistematik olaraq məhsul istehsal etmək, xidmət göstərmək və ticarətlə məşğul olmaq fəaliyyətidir.<br>Dövlətin aqrar siyasəti kənd təsərrü-fatında islahatların aparılmasına istiqamətlənmişdir.<br>Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə təsir göstərən xarici mühit faktorları, əslində sahibkarlıq qurumlarının daxili imkanla-rından asılı olmur.<br>Kənd təsərrüfatı məhsullarının isteh-salçıları iqtisadi artımı əhəmiyyətli dərə-cədə təmin etmək iqtidarında olmadığını | 1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xid-mət işinin təşkili Baki; 2004.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi prob-lemləri. Bakı, 2004 |

| | | | |
|---|---|---|---|
| | | və azad rəqabətin əlverişsiz təzahürlərinə effektiv reaksiya göstərmək iqtidarında olmadığından, bütövlükdə bazar konyükturunda baş verən dalğalanmaları çevik şəkildə dəf etmək iqtidarında olmurlar. | |
| **4** | | **Mövzu 4.**<br>**Aqrar iqtisadiyyat və ərzaq təhlükəsizliyi**<br>Qısa icmal:<br>XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən beynəlxalq münasibətlər sistemində sürətlə genişlənən qloballaşma meylləri nəticə etibarilə hər bir ölkənin milli təhlükəsizliyinin təmin edilməsini obyektiv zərurətə çevirmişdir.<br>Müasir şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində ərzaq təhlükəsizliyinin təmin edilməsi problemi xüsusilə aktuallıq kəsb edir.<br>Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə əsas etibarilə sosial-iqtisadi və siyasi aspektdən yanaşılır.<br>Müasir şəraitdə ərzaq təhlükəsizliyi problemi artıq beynəlxalq münasibətlər sistemini kifayət qədər dərindən təsir dairəsinə almış bir problemə çevrilmişdir. | 1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004 |
| **5** | | **Mövzu 5.**<br>**Aqrar iqtisadiyyatın iqtisadi mexanizmi və quruluşu.**<br>Qısa icmal:<br>Ölkəmizin iqtisadi sisteminin sürətli inkişafı, dünya bazarlarına inteqrasiya olunması, güclənən beynəlxalq rəqabət aqrar sahənin tarazlı inkişafını və təsərrüfat sisteminin modernləşdirilməsini qarşıya qoyur.<br>Ölkəmizdə həyata keçirilən aqrar islahatlar nəticəsində yeni mülkiyyət münasibətləri formalaşmış, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılmışdır.<br>Aqrar sahədə iqtisadi proseslərdə fəal iştirak edən və iqtisadi fəaliyyətə təsir edən iqtisadi mexanizmlərdən biri maliyyə-kredit mexanizmidir.<br>Kənd təsərrüfatında təbiət hadi- | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |

| | | | |
|---|---|---|---|
| | | sələrinin və texnogen amillərin təsirinin neytrallaşdırılması və risklərin səviyyəsinin idarə olunması səmərəli fəaliyyətin əsas şərtlərindən biridir. | |
| **6** | | **Mövzu 6.**<br>**Bazar iqtisadiyyatı şəraitində aqrar münasibətlərinin formalaşması və onun inkişafı mərhələləri**.<br>Qısa icmal:<br>İqtisadiyyatın ən mühüm sahələrindən biri də kənd təsərrüfatıdır. Bu sahə emal sənayesi sahələrini xammalla təchiz etməklə yanaşı əhalinin qida məhsulları və istehlak şeylərinə olan tələbatının ödənilməsində mühüm yer tutur.<br>Torpaq rentası iqtisadi tənzimləmə sisteminin mühüm tərkib hissəsi olmaqla, digər iqtisadi vasitələrlə də sıx əlaqədardır.<br>Əlverişsiz şərtlərə malik olan torpaq sahələrindəı münbitliyin səviyyəsi aşağı olduğundan, bu da son nəticədə kənd təsərrüfatında məhsuldarlığın səviyyəsinin aşağı olmasına gətirib çıxarır.<br>Torpaq resurslarından istifadənin təşkili ilə bağlı qarşıda duran ən mühüm vəzifələrdən biri istehsalın ərazi təşkili prosesini təmin etmək, eləcə də istehsalın yerləşməsi və istisaslaşması istiqamətində ölkənin strateji maraqlarının təmin edilməsini həyata keçirməkdən ibarətdir. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>3.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**4.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |
| **7** | | **Mövzu 7.**<br>**ASK və aqrar iqtisadiyyatın inkişaf istiqamətləri**<br>Qısa icmal:<br>XX əsrin sonlarından etibarən beynəlxalq münasibətlər sistemində sürətlə güclənən qloballaşma prosesləri, elmi-texniki tərəqqinin inkişafı, nəticə etibarilə iqtisadiyyatın mühüm və strateji əhəmiyyətli sahəsi kimi kənd təsərrüfatının digər sahələrdən asılılığını kifayət qədər gücləndirmişdir.<br>Aqrar-sənaye kompleksinin iqtisadiyyatında inteqrasiya münasibətləri, bir tərəfdən istehsal-təsərrüfat əlaqələrinin genişlənməsi və dərin- | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004. |

| | | | |
|---|---|---|---|
| | | ləşməsi, eləcə də maddi əmək və maliyyə resurslarından səmərəli istifadə edilməsi ilə bağlı səylərin birləşdirilməsini nəzərdə tutur.<br>Araşdırmalar göstərir ki, kapitalın diversifikasiyası, nəticə etibarilə bazar konyukturundan asılılığın aradan qaldırılmasına şərait yaradır.<br>Bazar iqtisadiyyatı şəraitində aqrar-sənaye inteqrasiyasının ən mühüm prinsiplərindən biri də inteqrasiya subyektlərinin maraqlarının ümumi maraqlara tabe etdirilməsi ilə sıx əlaqədardır. | **5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |
| **8** | | **Mövzu 8.**<br>**Aqrar sahə və regionların sosial-iqtisadi inkişafı**<br>Qısa icmal:<br>Qərb ölkələrinin təcrübəsinə əsaslanaraq hesab edilirdi ki, iqtisadi inkişafın zəruri şərti təsərrüfatın aqrar strukturunun sənayeyə xidmət edən inkişaf etmiş sahələrinin sürətlə yenidən qurulmasıdır.<br>İqtisadiyyatın ikinci mühüm sahəsi olan aqrar bölmənin inkişafı problemlərinin həlli kompleksli yanaşma tələb edir. Bu baxımdan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" müstəsna əhəmiyyət kəsb edir.<br>Müasir şəraitdə regionların sosial-iqtisadi inkişafının qarşısında duran başlıca məqsəd əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına və s. nail olmaqdır. Məhz bu baxımdan sosial-iqtisadi inkişaf prosesi özündə ən mühüm tərkib elementini özündə birləşdirir. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |
| **9** | | **Mövzu 9.**<br>**Aqrar iqtisadiyyat və innovasiya siyasəti**<br>Qısa icmal:<br>Müasir dövrdə elmi-texniki tərəqqi cəmiyyətin ictimai, sosial və iqtisadi həyatına əhəmiyyətli dərəcədə nüfuz etmişdir. Beynəlxalq münasibətlər sisteminin qloballaşması, xüsusilə elmi-texniki tərəqqinin cəmiyyətin, ictimai, sosial və iqtisadi həyatına əhəmiyyətli | 1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004. |

| | | | |
|---|---|---|---|
| | | dərəcədə nüfuz etməsinə gətirib çıxarmışdır.<br>Aparılan elmi araşdırmalardan belə qənaətə gəlmək olar ki, innovasiya fəaliyyətini xarakterizə etmək məqsədilə aşağıdakını istifadə etmək mümkündür:<br>İnnovasiyar bir qayda olaraq, innovasiya fəaliyyətinin son nəticəsini özündə əks etdirir.<br>İnnovasiya fəaliyyətinin həyata keçirilməsi və uğurla reallaşdırılması nəticəsində yeni məhsul əldə edilir.<br>Müəssisədə innovasiya fəaliyyə-tinin müvəffəqiyyətlə reallaşdırılması əslində, innovasiya aktivliyindən bilavasitə asılıdır. İnnovasiya aktivliyi, əsas etibarilə ğzünəməxsus xarakteristikaya malikdir. | 4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi prob-lemləri. Bakı, 2004 |
| **10** | | **Mövzu 10.**<br>**Aqrar istehsal və ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz məhsul istehsalı**<br>Qısa icmal:<br>Müasir şəraitdə beynəlxalq münasibətlər sistemini kifayət qədər əhatə edəb və dünya çapında qlobal problemə çevrilən ən mühüm məsələlərdən biri də təbiətin mühafizəsi və ekoloji mühitin yaxşılaşdırılması hesab olunur.<br>Ətraf mühitin mühafizəsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi bilavasitə dövlət tənzimlənməsinin forma və metodlarına şamil edilir.<br>Təbiətin mühafizəsi ilə bağlı qəbul edilən qanunvericilik aktlarında başlıca vəzifə təbiət və cəmiyyət arasında qarşılıqlı münasibətlərin tənzimlənməsinə istiqamətlənir.<br>Təbiətdən istifadənin yaxşılaşdırılmasına müxtəlif təbiətdən istifadə vasitələrini tətbiqi və eləcə də onların planlaşdırılması vasitəsilə nail olmaq mümkündür. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xid-mət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Reg-ionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |

| | | | |
|---|---|---|---|
| **11** | | **Mövzu 11**<br>**Aqrar istehsalın və aqrar bazarın formalaşması istiqamətləri**<br>Qısa icmal:<br>Ətraf mühitin mühafizəsi və təbiətdən istifadənin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər dövlətin stimullaşdırıcı tənzimləmə vasitəsilə reallaşdırılır ki, bu tədbirlərə aşağıdakılar şamil edilir:<br>- bu və ya digər müəssisələrə, o cümlədən təbiətdən istifadə edən təsərrüfat qurumlarına vergi və digər güzəştlərin müəyyənləşdirilməsi;<br>- ekoloji fondlarıb vergiqoymadan azad olunması;<br>-təbiəti mühafizə ilə bağlı fondların fəaliyyətində amortizasiya normalarının yüksək formada müəyyənləşdirilməsi;<br>- ekoloji cəhətdən təmiz məh-sullara görə həvəsləndirici qiymətlə-rin tətbiqi.<br>Təbiətdən istifadənin yaxşılaşdı-rılmasına müxtəlif təbiətdən istifadə vasitələrinin tətbiqi və eləcə də onların planlaşdırılması vasitəsilə nail olmaq mümükündür. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xid-mət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Reg-ionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s<br>, |
| **12** | | **Mövzu 12**<br>**Aqrar iqtisadiyyatda investisiya siyasəti və istehsalın intensivləş-dirilməsi istiqamətləri.**<br>Qısa icmal:<br>İnvestisiya prosesi dedildə, investisiya qoyuluşlarının və onun keçirilməsi ilə bağlı olan bütün proseslərin məcmusu başa düşülür.<br>Qanuna əsasən investisiya gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.<br>Aqrar sahənin investisiyalaşdı-rılması müxtəlif mülkiyyət mənsublu təsərrüfat qurumlarının yanacaq, toxum və maddi-texniki resurslara olan tələbatının ödənilməsinə gətirib çıxarır.<br>Aqrar sahənin maraqları nəzərə | 1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd tə-sərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xid-mət işinin təşkili Baki; 2004.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi prob-lemləri. Bakı, 2004<br>5.A.A.Rüstəmov, D.Q.Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi Bakı, 2013. |

| | | | |
|---|---|---|---|
| | | alınmaqla investisiya siyasətinin həyata keçirilməsi kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrdə dövlətin strateji maraqlarının qorunmasına xidmət edir. | |
| **13** | | **Mövzu 13**<br>**Aqrar istehsalın səmə\rəliliyinin yüksəldilməsi yolları.**<br>Qısa icmal:<br>Aqrar sahənin qarşısında duran əsas problemlərdən biri kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləridir.<br>Səmərəlilik iqtisadi kateqoriya olmaqla özünü istehsal-texnoloji, istehsal-iqtisadi və iqtisadi-sosial cəhətlərdə göstərməsilə biruzə verir.<br>Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi maddi-texniki vəsaitlərdən, torpaqdan, əmək ehtiyatlarından düşünülmüş qaydada istifadə edilməsindən və qənaət üsuluna əməl edilməsindən çox asılıdır.<br>İqtisadi səmərəliliyin əsas göstəricilərindən biri əmək məhsuldarlığıdır.<br>Kənd təsərrüfatında istehsal edilən məhsulun maya dəyəri də iqtisadi səmərəliliyi əks etdirən əsas göstəricilərdəndir. | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A.Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004.<br>**5.**Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s |
| **14** | | **Mövzu 14.**<br>**Aqrar istehsal və kənddə məşğulluq problemi**<br>Qısa icmal:<br>Müasir dövrdə bütün ölkələrdə müşahidə olunan kəskin problemlərdən biri işsizlikdir. Məşğul əhali ilə işsizlər ikisi birlikdə ölkənin iş qüvvəsini əmələ gətirir.<br>Məşğulluq sosial-iqtisadi münasibətlər toplusunu ifadə etməklə bərabər, əhalinin iş yerinə olan tələbatı ilə mövcud iş yerləri arasındakı nisbətlə müəyyən edilir.<br>Əhalinin məşğulluq problemləri sistemində onların iqtisadiyyatın | 1.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>2.Azərb. Respublikası Regionl. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı-2009.<br>3.A.A Rüstəmov, D.Q Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı 2013, 406 s.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004. |

| | | | |
|---|---|---|---|
| | | sahələri, iqtisadi fəaliyyət üzrə, habelə mülkiyyət formaları üzrə bölgüsünün 30%-ə qədəri kənd təsərrüfatının payına düşür<br>Ölkədə həyata keçirilən aqrar islahatlar yeni mülkiyyət münasibətlərinin və sahibkarlığın inkişafına, ehtiyatlardan səmərəli istifadəyə geniş imkanlar açmışdır.<br>Kənddə yeni iş yerlərinin yaradılmasına şərait yaratmaq, əhalinin məşğulluğunu təmin etmək, kənd yerlərində aqrar bölmənin mövcud elmi-texniki potensialını inkişaf etdirməkdən ötrü dövlət tərəfindən olduqca ciddi addımlar atılmışdır. | **5.** Ə.X.Nuriyev. Regional siyasət və idarəetmə. Bakı, 2004, 348 s<br>, |
| **15** | | **Mövzu 15.**<br>**Müasir aqrar islahatlar, aqrar iqtisadiyyatda idarəetmə sistemi və onun təkmilləşdirilməsi.**<br><br>Qısa icmal:<br>Müasir şəraitdə aqrar iqtisadiyyatın idarə edilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə xidmət edən bir proses kimi səciyyələnir.<br>Bazar iqtisadiyyatının inkişaf etdirilməsi bütün sahələrdə olduğu kimi kənd təsərrüfatında da mülkiyyətin özəlləşdirilməsi və dövlətsizləşdirilməsi ilə nəticələınmişdir.<br>Müasir şəraitdə sosial təmayüllü iqtisadiyyatın səmərəli baxımdan formalaşdırılması məqsədilə idarəetmə mühüm rola malikdir.<br>İdarəetmə cəmiyyətin inkişafında qanunların reallaşdırılmasını və onların təşkilati transformasiyasını özündə əks etdirir.<br>Bazar iqtisadiyyatı şəraitndə kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif əmtəə istehsalçıları arasında sıx qarşılıqlı əlaqə mövcud olmalıdır. | 1.İ.V.Əhmədov Aqrar sənaye kompleksin idarə edilməsi. Bakı 1992,<br>2.V.M.Niftaliyev. Kənd təsərrüfatının iqtisadiyyatı Baki.1996<br>3.C.C Məmmədov Aqrar bölmədə maddi-texniki xidmət işinin təşkili Baki; 2004.<br>4.S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004 |
| **Seminar məşğələləri.Cəmi-30 saat** | | | |
| 1 | | **Mövzu 1. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi fənninin məzmunu, predmeti, öyrənilmə metodu.** | 2 s. |

| | | | |
|---|---|---|---|
| | | | |
| 2 | | **Mövzu 2. Aqrar iqtisadiyyat ölkənin xalq təsərrüfatı sistemində** **.** | 2 s. |
| 3 | | **Mövzu 3. Aqrar istehsalda sahibkarlıq fəaliyyəti və müasir aqrar siyasətin elmi əsasları.** | 2 s. |
| 4 | | **Mövzu 4. Aqrar iqtisadiyyat və ərzaq təhlükəsizliyi** | 2 s. |
| 5 | | **Mövzu 5. Aqrar iqtisadiyyatın iqtisadi mexanizmi və quruluşu.** | 2 s. |
| 6 | | **Mövzu 6. Bazar iqtisadiyyatı şəraitində aqrar münasibətlərinin formalaşması və onun inkişafı mərhələləri.** | 4 s. |
| 7 | | **Mövzu 7 ASK və aqrar iqtisadiyyatın inkişaf istiqamətləri** | 2 s. |
| 8 | | **Mövzu 8. Aqrar sahə və regionların sosial-iqtisadi inkişafı** | |
| 9 | | **Mövzu 9 Aqrar iqtisadiyyat və innovasiya siyasəti** | 2 s. |
| 10 | | **Mövzu 10. Aqrar istehsal və ətraf mühitin mühafizəsi, ekoloji cəhətdən təmiz məhsul istehsalı** | 4 s. |
| 11 | | **Mövzu 11. Aqrar istehsalın və aqrar bazarın formalaşması istiqamətləri** | 2 s. |
| 12 | | **Mövzu 12. Aqrar iqtisadiyyatda investisiya siyasəti və istehsalın intensivləş-dirilməsi istiqamətləri.** | 2 s. |
| 13 | | **Mövzu 13. Aqrar istehsalın səmə\rəliliyinin yüksəldilməsi yolları.** | 2 s. |
| 14 | | **Mövzu 14. Aqrar istehsal və kənddə məşğulluq problemi** | 2 s. |
| 15 | | **Mövzu 15. Müasir aqrar islahatlar, aqrar iqtisadiyyatda idarəetmə sistemi və onun təkmilləşdirilməsi.** | 2 s. |

**Fənn müəllimi:** **baş müəllim M.M.Abbasova**